*Qasımov Sahil Yaqub oğlu,*
*hüquq üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti,*
*Email: sahil_0560@mail.ru*

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*"Bizim bütün sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur".*
**Heydər Əliyev**

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının formalaşması və inkişaf mərhələlərinə, həmçinin milli dövlətçiliyimizin tarixi köklərinə dair ensiklopedik biliklərə malik olmuş, müstəqil dövlət quruculuğu zamanı bu bilgilərdən yetərincə istifadə etmişdir. Bilik və bacarığı ona həm ölkənin daxili idarəetməsi, həm də xarici siyasətlə bağlı fəaliyyətində uğur qazandırmışdır. Ulu Öndərin ağıllı, uzaqgörən və balanslaşdırılmış xarici və daxili siyasəti ilə bağlı reallıqlar təkcə azərbaycan xalqı və türk dünyasına deyil, demək olar ki, dünya ictimaiyyətinin əksəriyyətinə məlumdur. Onun siyasi hakimiyyət və idarəetmə sahəsindəki fəaliyyətinə dair çoxsaylı həqiqətləri bir məqalə tezisləri səviyyəsində təhlil etmək, onlara münasibət bildirmək çətindir. Bununla belə bəzi məsələlər barədə aşağıdakıların qeyd edilməsi məqsədəmüvafiq hesab edilmişdir.

Heydər Əliyev dövlət hakimiyyətinin idarəedilməsi ilə bağlı daxili siyasətində diqqət yetirdiyi əsas cəhətlər aşağıdakı qaydada təsnifləşdirilmişdir:

1. Milli təhlükəsizliyin təmin edilməsi;

2. Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və inkişafı;
3. Hüquqi dövlət qurulucuğu;
4. İqtisadi və sosial inkişaf (5 səh-67).

Lakin qeyd edilən istiqamətlərdə qarşıya qoyulan bu vəzifələrin həyata keçirilməsi müstəqilliyini yeni əldə etmiş Azərbaycan dövləti üçün ciddi çətinliklərin aradan qaldırılmasını tələb edirdi. Çünki əhatəsində olduğu hegemon dövlətlərin təzyiqləri, Ermənistanın mütəmadi təcavüzü və hələ də kifayət qədər milli kadrların olmaması bu vəzifələrin icrasına ciddi maneələr yaradırdı.Təsadüfi deyildir ki, 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyə gələn Ümummilli Lider Heydər Əliyev dövlət müstəqilliyi, onun qorunub saxlanılması ilə bağlı demişdir: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması ondan da çətindir" [2].

Belə bir vəziyyətdə müstəqil dövlətçiliyi möhkəmləndirmək və onu qoruyub saxlamaq üçün Heydər Əliyev ilk növbədə dövlət-xalq münasibətlərini yeni dövrün tələblərinə uyğun qurmaq ideyasını irəli sürdü. O, qeyd edirdi ki, suverenlik isə müstəqilliyin təmin edilməsi dövlətlə xalqın birliyinə əsaslandıqda təminatlı olur. Bu mənada Ümummilli Liderin aşağıdakı fikirləri dəyərlidir: "Xalq dövlət üçün, dövlət xalq üçün olmalıdır" [2].

Dövlət və xalq birliyinə bu ideya əsaında yanaşma demək olar ki, xalqda dövlətə inam hissini artırdı və milli birlik üçün də əsas zəmin oldu. Bu zaman Heydər Əliyev həm də Azərbaycanın ərazisində yaşayan çoxsaylı millət və xalqlar, etnik qrup, milli azlıqlar arasında da vəhdət və dostluq əlaqələrinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirməyi vacib hesab etdi. O, Azərbaycanın coğrafi məkanı, əhalisinin milli tərkibi, adət-ənənələri və digər mental dəyərlərini yüksək səviyyədə bildiyinə görə xalqla - dövlət vəhdətini yaratmaq üçün bu cəhətləri nəzərə almağa üstünlük verirdi. Heç bir ayrıseçkilik olmadan azərbaycan xalqının tərkibinə daxil olan bütün millət, milli azlıq və etnik qrupların təhlükəsizliyinin təminatçısı olmaq yalnız dövlət hakimiyyət orqanları ilə xalq birliyi arasında sıx əlaqələrin qurulmasının zəmanəti hesab edilə bilərdi.

Odur ki, Heydər Əliyevin yaradıcısı olduğu AR Konstitusiyasının hər bir müddəa və normalarında bu istiqamətdə praqmatik fikirlər, demokratizm ideyalarının kifayət qədər yer aldığını görmək mümkündür. Bu həm də dövlətçilik üçün mühüm əhəmiyyəti olan dil məsələsinə də aid edilə bilər. Belə ki, milli məclisdə bu mövzuda müzakirələr zamanı Heydər Əliyev Türkdilli xalqların bir qolu olmaqla Azərbaycan xalqının öz ana dilinin dövlət dili kimi qəbul edilməsini həm tarixi faktlarla, həm də sosial ənənəvi normalar baxımından təhlil etmiş və öz münasibətini obyektiv tarixi mənbələrlə əsaslandırmışdır. Ana Qanun olan Konstitusiyamızın 21,25,44 və 45-ci maddələrində hər kəsin hüquq bərabərliyi ideyası ilə yanaşı, öz ana dilindən istifadə etmək hüququnun təsbitinə də diqqət yetirilmişdir (1). Heydər Əliyevin əsasını qoyduğu və Ali Baş Komandan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilən, Konstitusion hüquqi əsaslara söykənən və sözün həqiqi mənasında dəqiq dövlət mexanizmləri ilə müdafiə edilən bu milli birlik 44 günlük Zəfər Müharibəsində öz müsbət nəticələrini göstərdi. Bu birliyinin obyektiv reallıq olması və legitim hüquqi əsaslarla bağlılığı ölkəmizdə yaşayan bütün müllətlər, milli azlıq, etnik

qrup və xalqların nümayəndələrinin vahid komandanlıq altında birləşməsində və təcavüzkara layiqli cavab verilməsində təsdiqini tapdı.

Bir sıra tədqiqatçılar, o cümlədən əcnəbi alimlər dövlət hakimiyyətinin təşkilində millətlərə, onların dil və mədəniyyətlərinə münasibətin düzgün qurulmasının vacibliyini qeyd etmişlər. Onlardan biri - ingilis mənşəli tədqiqatçı E.Smiss özünün "Millətlər tarixdə - etnik və millətçilik haqqında tarixi debatlar" əsərində yazmışdır ki, dövlət siyasi və geopolitik bir varlıq, millət isə mədəni və ya etnik bir varlıqdır. Tarixdəki digər dövlətlərdən fərqli olaraq ulus dövlət modelində dövləti yaradan bütün vətəndaşların ortaq bir dili, ortaq bir mədəniyyəti və ortaq dəyərləri paylaşması əsasdır [6, s.56]. Bu tədqiqat əsərlərində qeyd edildiyi kimi milli və mənəvi dəyərlər bir coğrafiyada, yəni bir dövlətin ərazisində mövcud olduqda onların qarşılıqlı əlaqəsi, birlik və vəhdətindən danışmaq olar. Buradan da belə bir nəticə çıxır ki, dövlətin ərazi bütövlüyünün mövcudluğu həm milli maraqların qorunması, həm də dövlət təhlükəsizliyinin təmini üçün mühüm şərtlərdəndir. Odur ki, Heydər Əliyev hakimiyyətin legitim əsaslarla təşkili üçün ölkə ərazisində yaşayan çoxsaylı millətlər arasında ayrıseçkiliyə yol verilməməsinin mühüm şərt olduğunu da diqqət mərkəzində saxlayırdı. İkinci dəfə Azərbaycan xalqının təkidı ilə hakimiyyətə gəlmiş Ümummilli Lider Heydər Əliyev bilirdi ki, xalqın birliyinə, onun gücünə və dəstəyinə arxalanmayan hakimiyyət uzun müddət yaşaya bilməz. Konstitusiyanın 24-26-cı normaları qeyd edilən müddəalarda da qeyd ediən cəhətə ifadə edilmişdir (1).

Bundan başqa Heydər Əliyev dünya birliyinə müstəqil subyekt kimi daxil olan Azərbaycanın öz fəaliyyəti zamanı beynəlxalq hüququn norma və prinsiplərindən istifadəyə üstünlük verməsinin Konstitusiyanın 10-cu maddəsində nəzərdə tutulmasına xüsusi önəm vermişdir (1).

Beləliklə, bu məqalədə qeyd edilən bütün müddəaların ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Müstəqil Milli dövlətçiliyi qurmaq,onu idarə etmək və müstəqilliyi və ərazi bütövlüyünü qoruyub saxlamaq üçün;

2. Milli təhlükəsizliyin təmini üçün "dövlət-xalq, xalq-dövlət" birliyinin təmin edilməsi dövlət orqanlarının prioritet vəzifələrindən olmalıdır;

3. Ölkə ərzisindəki, millətlər, xalqlar və milli birlik və etnik qrupların konstitusiya səviyyəsində hüquqi müdafiəsini təsbit etmək və bunun təmin edilməsi üçün real mexanizmlər tərtib etmək zəruridir;

4. Milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, seçki hüququ və digər siyasi hüquq və azadlıqlar da daxil olmaqla real təmin edilməlidir;

5. Dövlətin müstəqilliyi,ərazi bütövlüyü və milli təhlükəsizliyinə qarşı təcavüz aktları baş verdiyi halda xalqı səfərbər etmək və vahid komandanlıq altında birləşdirməklə əsas problemlərin həllinə yönəltmək zəruridir;

6. Milli təhlükəsizliyimizin təmin edilməsi üçün demokratik hüquqi dövlət quruculuğu prosesinin daha səmərəli həyata keçirilməsi zəruridir.

## İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı-2019-cu il, “Hüquq Yayın evi”, 63 səh.

2. “Azərbaycan Xalqının Ümummilli Lıderi, Heydər Əliyevin tarixə düşən kəlamları «Fakt-Araşdırma» http://faktat.az/ Tarix: 2016/07/14”.

3. “ Heydər Əliyev və azərbaycançılıq”, Nizaməddin ŞƏMSİZADƏ,filologiya elmləri doktoru,professor, Xalq qəzeti. 2009, 5 may, s.4.

4. Qumru Əliyeva,Günay Hacızadə,“Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası”, Bakı -2011, “Azərbaycan nəşriyyatı”, 299 səh.

5. “ Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi”, Səyyad Aran, İstanbul, 2007-ci il, 307 səh.

6. Anthony D. Smith, The nation in history: historiographical debates about ethnicity and nationalism, UPNE, 2000, sf. 56.

7.”Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanunu, Bakı, 2004-cü il 29 iyun, ”E-qanun”az, № 712-IIQ.